

Səbuhi RƏFİBƏYLİ

## KİMİ

Kimsəsiz tək-tənha qalmışam yenə,
Fikirə, xəyala dalmışam yenə,
Yamanca kövrəlib, dolmuşam yenə,
Tutqunam bu payız havası kimi.

Çökdü gözlərimə qaranlıq kədər,
Getdi günlərimin yarısı hədər.
Yandıran olmadı məni bu qədər,
Həsrətin yanğısı, yarası kimi.

Qayğımı çəkən yox, dura keşikdə,
Məni yırğalaya isti beşikdə,
Qəlbimi üşüdən ev də, eşik də,
Soyuqdu bir sərçə yuvası kimi.

Dünyamı yandırıb, yaxıram indi,
Həyata kədərli baxıram indi.
Dönüb göz yaşına axıram indi,
Ağlayan gözlərin, qorası kimi.

Arzular toxundu bəxtin daşına,
Qarışdı baharım, yazım, qışıma...
Dolandı başıma, döndü başıma,
Dərd məni bəslədi balası kimi .

## UZAQ

Dünya, təzadların başımı qatar,
Arzular laylayla  mürgülər, yatar,
Nə ünüm yetişər , nə hayım çatar,
Bu mənzil atdığım daşımdan uzaq.

Kədərimlə birgə, qəmimlə birgə,
Bürünüb gəzərəm çənimlə birgə.
Yağmurlar içində nəmimlə birgə,
Bəzən ağlayaram yaşımdan uzaq.

Daha həqiqətin adı bilinməz
Üzlərin sevinci, şadı bilinməz,
Mənimçün həyatın dadı bilnməz,
Şirnisi, şəkəri aşımdan uzaq.

Əyrini səbrimlə təkləmişəm mən,
Bu ömrü haqq üçün köklənmişəm mən.
Qəlbi qayğılarla yükləmişəm mən,
Xeyirxahlıq düşməz  qarşımdan uzaq .

## YERİ

Yenə də dalmışam düşüncələrə,
Ümidlə baxıram doğan səhərə,
Sənin özün qədər əzizdi mənə,
Şirin xəyalların sığınan yeri .

Həyatın gerçəyi, yalanı həsrət ,
Qəlbimin soyğunu, talanı həsrət ,
Mənim gözlərimin  dolanı həsrət,
Axan göx yaşımın yığılan yeri .

Yoxdu bir soruşub arayan indi,
Həsrəti vüsala calayan indi,
Dağların çovğunu,qarıyam indi,
Sənin qəlbin idi qızınan yeri .

Yandırdı qəlbimi atəşin odu,
Bilmirəm qiyamət, axirət bumu .
Sənsizlik mənimçün həyatın sonu,
Dünyanın məhv olub yıxılan yeri .

## BURDA

Xeyir savaşında, şər savaşında,
Cırtdan meydanında, nər savaşında,
İtirdik, qazandıq hər savaşında,
Hiylənin-kələyin bazarı burda.

Yoxdu çarəsizin kimi-kimsəsi,
Gəzdirər əlində qəm piyaləsi,
Ağrisi, acısı, ahı, naləsi,
Dünyanın hər dərdi, azarı burda.

Məzlum baxışlarda gözlərin seli,
Mərhəmət söyləyən, inləyən dili,
Düzün-doğruların  dəfn olan yeri ,
Haqqın-həqiqətin məzarı burda.

Nadanı bilinməz, nayı bilinməz,
Qayğılı günlərin, sayı bilinməz,
Fitnənin,  fəsadın vayı bilinməz,
Şeytanın qaynayan qazanı burda.

kaspi.-2019.-1-3 iyun.-S.22.